# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi yad olundu

## Qəbələlilər ümummilli lider Heydər Əliyevin anım gününü qeyd etdilər

Dünən Azərbaycan xalqının ulu öndəri, güvənc yeri, XX əsrin dünyada ən görkəmli siyasi xadimlərindən biri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 10 il keçdi. Xalq bu dahi şəxsiyyətin cismən bizdən ayrıldığı illər uzaqlaşdıqca onun şəxsiyyətinin, bütün dünyaya






bəlli nüfuzunun böyüklüyünü, ucalığını daha dərindən dərk edir, bu əbədiyaşar, müdrik insanın daha hansı keyfiyyətlərə malik olduğunu bir daha dərindən anlayır, onun xatirəsini dönə-dönə əziz tutur.

Bütün respublikamızda və dünyanın bir sıra dövlətlərində yaşayan Azərbaycanlıların 12 dekabrda Heydər Əliyevin anım gününü qeyd etdiyi kimi qəbələlilər də müdrik rəhbərlərinin anım gününü yüksək səviyyədə, sərt soyuğa və aramsız qar yağmasına baxmayaraq qeyd etmişlər. Həmin gün rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, icra hakimiyyəti aparatının məsul işçiləri, idarə və müəssisələrin, ictimai təşkilatların, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahəsinin nümayəndələri şəhərin mərkəzi parkında ucaldılmış Heydər Əliyevin abidəsini ziyarət etmişlər. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev abidənin önünə əklil qoymuş və dahi şəxsiyyətin əziz xatirəsini yad etmişdir. Sonra idarə və müəssisələrin, ictimai təşkilatların kollektivləri dəstə-dəstə Heydər Əliyevin abidəsi önünə tər qərənfillər və gül-çiçək dəstələri düzərək əziz xatirəsini yad etmişlər.



Tədbir Heydər Əliyev Mərkəzinə ziyarətlə davam etmişdir. Burada ulu öndərin həyat və fəaliyyətini əks etdirən ekspozisiya salonu, onun kitabları, əşyaları ilə tanışlıq bir daha ziyarətçilərdə xüsusi maraq doğurmuşdur.

Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərliyi illərində iki dəfə Qəbələdə rəsmi səfərdə olmuşdur. Onun respublikamızın bu ucqar və dilbər güşəsinə hər gəlişi qəbələlilərə böyük töhfə vermişdir. 1978-ci ildə birinci gəlişindən sonra ilk növbədə 900 il qədim Alban dövlətinin paytaxtı olmuş Qəbələ şəhəri yerləşən ərazinin dağıdılmasının qarşısını almışdır. O zaman Qəbələdə tikilən keçmiş sovet dövlətinin radiolakasiya stansiyasının yüksək gərginlikli elektrik xəttinin buradan keçməsi planlaşdırılmışdır. Heydər Əliyevin səyi ilə güclü sovetlər ordusunun qərarına qarşı sipər çəkilmişdir. Çünki bu həmin dövrdəki Azərbaycan tarixinin üstündən qələm çəkilməsi demək idi. Hazırda Azərbaycan tarixinin 900 illik bir dövrü 50 ildən çoxdur ki, tariximizin alimlər tərəfindən araşdırılır. Burada qeyd etmək yerinə düşər ki, Qəbələnin sosial-iqtisadi inkişafı da elə Heydər Əliyevin ilk gəlişindən sonrakı dövrdən başlamışdır.

Heydər Əliyevin Qəbələyə ikinci səfəri isə 2002-ci ildə olur. Rayonun bu günkü sürətli inkişafı da məhz onun təşəbbüsü ilə bağlıdır. Ona görə də qəbələlilər öz qədim yurdlarına olan Heydər Əliyev qayğısını heç bir vaxt unutmurlar.

Anım günündə Heydər Əliyevin abidəsini ziyarətə gələn yüzlərlə, minlərlə Qəbələlinin onun ruhuna bəslədiyi böyük ehtiram və sevgi bu məsələyə bariz nümunədir. Qəbələlilər artıq nəinki anım günlərində, digər adi günlərdə də ulu öndərin abidəsini müqəddəs bir ziyarətgaha çevirmişlər. Gənclərimiz müntəzəm olaraq həm də Heydər Əliyev Mərkəzinə gəlir və burada Heydər Əliyev məktəbindən nümunə götürür, onun irsini öyrənməyə çalışırlar. Çünki bu irs, bu siyasi kurs, bu möhtəşəm ideologiya Azərbaycan xalqına, o cümlədən Qəbələ əhalisinə böyük məktəb, böyük dərs, böyük örnəkdir.

**Nadir ATAKİŞİYEV.**

**Fotolar S. Umuyevindir.**

# «Qafqaz» Sport hoteldə ehsan mərasimi

Dekabrın 12-də «Qafqaz» sport hoteldə rayon icra hakimiyyətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar ehsan mərasimi təşkil olunmuşdur. Mərasimə rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar, idarə və müəssisə rəhbərləri dəvət olunmuşdular.



Mərasimi giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq və dahi və unudulmaz şəxsiyyətin keçdiyi həyat yolu barədə çıxış etmişdir.

Səbuhi Abdullayev çıxışının sonunda Milli Məclisin üzvü, respublika Ağsaqqallar şurasının sədri, qəbələlilərin yaxın dostu Fəttah Heydərovun üzürlü səbəbdən bu günkü tədbirdə iştirak edə bilmədiyini qeyd etmiş və onun səmimi salamlarını məclis iştirakçılarına çatdırmışdır.

Sonra Qəbələ cümə məscidi imamının müavini Saleh Şirinov çıxış edərək Azərbaycanın gələcək azad və firavan həyatı ilə bağlı gördüyü işlərdən danışdı. O, çıxışında qeyd etdi ki, hələ çox qədimlərdən də eldə bir məsəl var: İtki iki cür olur. Onun birincisi evdən gedən itkidir, ikincisi isə eldən gedən itkidir. Heydər Əliyev isə evdən gedən itki deyil, eldən gedən itkidir. Bugünki anım günü isə bir daha təsdiqlədi ki, dahi şəxsiyyət eldən gedən itkidir.

**(Ardı 3-cü səhifədə).**